

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

29 yanvar 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 4 (3767)


# İqtisadiyyat şaxələndirilir

***Prezidentin müəssisələrin açılışında şəxsən iştirakı və layihələrlə yerində tanış olması dövlətin qeyri-neft sənayesini strateji prioritet kimi diqqətdə saxladığını açıq şəkildə göstərir.***

Azərbaycanın iqtisadi inkişaf modelində son illər müşahidə olunan əsas tendensiyalardan biri qeyri-neft-qaz sektorunun sistemli şəkildə gücləndirilməsidir. Bu istiqamətdə həyata keçirilən sənayeləşmə siyasəti artıq konkret nəticələr verməkdədir.

Yanvarın 27-də İlham Əliyevin Sumqayıt Sənaye Parkında bir sıra istehsal müəssisələrinin açılışında və yeni layihələrin təməlqoyma mərasimində iştirakı bu siyasətin ardıcıl və məqsədyönlü xarakter daşıdığını bir daha nümayiş etdirdi.

Dövlət başçısı Sumqayıt Sənaye Parkında "Azermirror" MMC-nin güzgü vərəqələrinin istehsalı zavodunun açılışında iştirak edib. Müəssisə Parkın 1 hektar ərazisində inşa edilib, burada 30 daimi iş yeri yaradılıb. Zavodun illik istehsal gücü 900 min kvadratmetr təşkil edir. Daha sonra dövlət başçısı Sumqayıt Sənaye Parkında "Bakı Karton və Qutu Fabriki" MMC-nin karton və qutu taralarının istehsalı müəssisəsinin açılışında iştirak edib.

Məlumat verilib ki, 3 hektara yaxın ərazidə yaradılmış müəssisədə Türkiyə və Çin texnologiyalarından istifadə olunur, illik istehsal gücü isə 55 milyon kvadratmetrdir. Burada 64 daimi iş yeri yaradılıb. Səfər çərçivəsində Prezident İlham Əliyev "Nun" MMC-nin polipropilen və laminatlı kisə istehsalı müəssisəsinin təməlini də qoyub.

Layihəyə əsasən, 1 hektar ərazidə Almaniya texnologiyası əsasında istehsal müəssisəsi inşa ediləcək. Zavodun illik istehsal gücü 3120 tondan çox olacaq, burada 140 daimi iş yerinin yaradılması nəzərdə tutulur. Bu layihələr yeni istehsal sahələrinin yaradılması mənasına gəlməklə bərabər, qeyri-neft sənayesində məhsul çeşidinin artması, daxili bazarın idxaldan asılılığının azalması və ixrac imkanlarının genişlənməsi anlamına gəlir.

Sumqayıt Sənaye Parkında güzgü vərəqələri, karton və qutu taraları istehsalı müəssisələrinin istifadəyə verilməsi, eyni zamanda polipropilen və laminatlı kisə istehsalı zavodunun təməlinin qoyulması ölkənin sənaye potensialının genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Neft qiymətlərinin qlobal bazarlarda dəyişkənliyi fonunda iqtisadiyyatın şaxələndirilməsi strateji zərurət kimi ön plana çıxır.

Sənaye parkları və sənaye məhəllələri məhz bu məqsədə xidmət edir. Burada sahibkarlar üçün hazır infrastrukturun yaradılması, vergi və gömrük güzəştlərinin tətbiqi, güzəştli kreditlərin verilməsi özəl sektorun istehsala marağını əhəmiyyətli dərəcədə artırır.

Nəticədə, yüksək texnologiyalara əsaslanan, rəqabətqabiliyyətli məhsulların istehsalı mümkün olur. Yeni müəssisələrin fəaliyyətə başlaması sosial-iqtisadi baxımdan da mühüm nəticələr doğurur. Sumqayıt Sənaye Parkında reallaşdırılan layihələr çərçivəsində artıq minlərlə daimi iş yeri yaradılıb və yeni iş yerlərinin də yaradılması nəzərdə tutulur.




**Qeyri-neft sənayesinin inkişafı strateji əhəmiyyət daşıyır**

## Prezident naziri qəbul edib

### Qarşılıqlı maraq doğuran məsələlərdən danışılıb

Prezident İlham Əliyev yanvarın 26-da İsrail Dövlətinin xarici işlər naziri Gideon Saarı qəbul edib.

Söhbət zamanı ölkələrimiz arasında münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari, enerji, turizm və digər sahələrdə uğurlu inkişafı vurğulanıb, kənd təsərrüfatı, su resurslarının idarə olunması, yüksək texnologiyalar, həmçinin süni intellekt sahələrində əməkdaşlıq məsələləri qeyd edilib, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əməkdaşlığın dərinləşdirilməsi işinə verdiyi töhfəyə toxunulub.

Eyni zamanda, hökumətlərarası komissiyanın rolu qeyd edilərək, bu yaxınlarda komissiyanın növbəti iclasının keçirildiyi vurğulanıb.

Qonaq onu bu səfərdə böyük biznes və işgüzar dairələrin nümayəndələrinin müşayiət etdiyini deyərək, səfər çərçivəsində keçiriləcək Azərbaycan-İsrail biznes-forumunun ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafına töhfə verəcəyini qeyd edib. O, Azərbaycanda yəhudi icmasına dövlət səviyyəsində göstərilən qayğıya görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

## Davos görüşləri...

### Prezident sosial media hesablarında paylaşım edib

Prezident İlham Əliyev Ümumdünya İqtisadi Forumunun İllik toplantısı çərçivəsində Davosda keçirdiyi görüşlər və beynəlxalq tədbirlərdə iştirakı ilə bağlı sosial media hesablarında paylaşım edib. Paylaşılan videoçarxda dövlət başçısının "Sülh Şurasının Nizamnaməsi" sənədinin imzalanması mərasimində iştirakı, həmçinin ABŞ Prezidenti ilə görüşü əks olunub.

Eyni zamanda dövlət başçısı Ümumdünya İqtisadi Forumunun İllik toplantısı çərçivəsində keçirdiyi çoxsaylı görüşlərə dair ayrıca paylaşım da edib. Həmin paylaşımda "Prezident İlham Əliyevin Ümumdünya İqtisadi Forumunun İllik toplantısı çərçivəsində görüşləri. Davos, 19–22 yanvar 2026-cı il" qeydi yer alıb.

Bundan əlavə, Prezident İlham Əliyev Ümumdünya İqtisadi Forumunun illik toplantısı ilə bağlı daha bir paylaşım edib. Paylaşımda dövlət başçısının Forumun 19–21 yanvar 2026-cı il tarixlərini əhatə edən proqramı və tədbirlərdə iştirakı diqqətə çatdırılıb.

## Sülh Şurası salamlayır

### Azərbaycan təsisçi üzvlərdən biridir

ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə təşkil edilmiş Sülh Şurasının X sosial mediasında səhifəsi yaradılıb. Səhifədə Sülh Şurası təsisçi üzv kimi Azərbaycanı salamlayıb. Azərbaycanla yanaşı səhifədə Sülh Şurasına üzv olan digər ölkələrə dair salamlama posterləri də yerləşdirilib.

Xatırladaq ki, Prezident İlham Əliyev Davosda "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədini imzalayıb. Bununla da Azərbaycan Sülh Şurasının təsisçi üzvlərindən biri olub.

# Qafqazın sülh qovşağı

## Prezidentin təşəbbüsü qlobal əməkdaşlığa çevrilir




Cənubi Qafqazda regional kommunikasiyaların açılması və siyasi normallaşma prosesləri ətrafında gedən müzakirələr son dövrlər yeni mərhələyə daxil olub. Böyük güclərin fəal şəkildə prosesə qoşulduğu indiki şəraitdə nəqliyyat və tranzit layihələri siyasi təsir mexanizmi kimi ön plana çıxır. Məhz bu kontekstdə Zəngəzur dəhlizi (TRIPP marşrutu) ətrafında aparılan danışıqlar, Ermənistanın ABŞ ilə intensivləşən təmasları və paralel şəkildə Türkiyə və Azərbaycanla normallaşma mesajları regionda formalaşmaqda olan yeni geosiyasi konfiqurasiyanın elementlərindən biri kimi diqqət çəkir.

Zəngəzur dəhlizi (TRIPP) ətrafında gedən danışıqlar Azərbaycan tərəfindən diqqətlə izlənilir. Prezident İlham Əliyev ötən həftə Davosda bildirdi ki, TRIPP vasitəsilə Asiya ilə Avropanı birləşdirən yeni dəhliz açılacaq. Ölkə başçısının sözlərinə görə, bu dəhliz Xəzər dənizi üzərindən Naxçıvana və oradan Türkiyəyə, Avropaya uzanacaq. Ölkə başçısı, həmçinin vurğuladı ki, Azərbaycan–Ermənistan sülhü və Türkiyə–Ermənistan diplomatik əlaqələri paralel olaraq qurulacaq. Ankara da bu nəqliyyat dəhlizində aktiv rol almağa başlayıb. Ötən ilin avqustunda Türkiyə 224 km-lik Qars–İğdır–Aralık–Dilucu dəmiryolu xəttinin təməlini qoyub.

Mütəxəssislərin fikrincə, bu dəhlizin açılması Azərbaycanın geosiyasi çəkisini artırmaqla yanaşı, ölkənin beynəlxalq əlaqələrini daha möhkəm əsaslar üzərində qurmasına şərait yaradacaq.

Hazırda Ermənistan–Türkiyə münasibətlərinin normallaşması Ermənistan–Azərbaycan münasibətlərindən əvvəlki dövrlərdən daha çox asılıdır. Politoloqlar qeyd edirlər ki, Ankara ilə münasibətləri normallaşdırmaq xüsusilə Ermənistan iqtisadiyyatına hava-su kimi lazımdır.

Türkiyə rəsmiləri də sərhədin açılmasını hələlik Azərbaycan və Ermənistan arasında sülh sazişi ilə bağlayır. ABŞ-ın vasitəçiliyi ilə Vaşinqtonda imzalanmış Birgə Bəyannaməyə görə, Zəngəzur dəhlizi və Ermənistan konstitusiyasına dair iki məqam hələ aradan qaldırılmayıb. Türkiyə–Ermənistan münasibətləri ilə bağlı fikir ayrılıqları olsa da, ümumi qənaət budur ki, proseslər Azərbaycanın sülh təşəbbüsləri ilə paritet inkişaf edir.


Sabitliyin ötənilki hesabatı.................2
Onlar yalnız kursant deyil.................3
Qətiyyətli tədbirlər görülür.................3
Etik davranış vacib şərtdir.................4

# Nazir Qəbələdə vətəndaşları qəbul edəcək

## Daxili işlər orqanlarında xidmət etmək istəyən namizədlərin sıra baxışı da keçiriləcək

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov fevralın 2-də Qəbələ rayonunda növbəti vətəndaş qəbulu və polis orqanları, o cümlədən daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirəcək.

Qəbələ Rayon Polis Şöbəsinin inzibati binasında baş tutacaq qəbulda Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonlarının sakinləri iştirak edə bilərlər.

Qəbula yazılmaq istəyən vətəndaşlar Nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı 01.02.2026-cı il tarixinədək yaşadıqları ərazinin polis orqanına, habelə Nazirliyin "E-Polis" mobil tətbiqi, e-xidmet.mia.gov.az elektron xidmət portalı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan namizədlərin sıra baxışı vətəndaş qəbulundan öncə, yəni fevralın 2-də 08:00-da Qəbələ Olimpiya İdman Kompleksində keçiriləcək.

Qeyd edək ki, qəbula və sıra baxışına gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# Sabitliyin ötənilki hesabatı

## Rəqəmlərin dili ilə danışan xidmət

**Ötən həftə Daxili İşlər Nazirliyində keçirilən kollegiya iclasında 2025-ci ildə cinayətlərin üstünün yüksək faiz göstəricisi ilə açılması ilə bağlı açıqlanan statistik məlumatlar öz-özlüyündə çox mətləbdən xəbər verir. İlk olaraq onu vurğulayaq ki, cinayətlərin 90 faizdən çoxunun açılması təsadüfi göstərici deyil və bu rəqəmin arxasında gecəsini gündüzünə qatan yüzlərlə fədakar qanunkeşikçisinin gərgin əməyi dayanır.**

Hesabatdan belə məlum olur ki, ötən il ölkə üzrə 31 min 852 cinayət qeydə alınıb və onların 90,5 faizi açılıb. Əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 310 fakt təşkil edib. Cinayətlərin 92,8 faizi daxili işlər və prokurorluq orqanlarının səlahiyyətləri çərçivəsində araşdırılıb və bu kateqoriyada olan hüquqazidd əməllərin 93,5 faizinin açılması təmin edilib. Daha da diqqətçəkən məqam ağır və xüsusilə ağır cinayətlərin, qeyri-aşkar şəraitdə törədilən əməllərin, şəxsiyyət və mülkiyyət əleyhinə cinayətlərin, eləcə də qəsdən adam öldürmə və quldurluq kimi ən təhlükəli qanun pozuntularının tam şəkildə açılmasıdır.

Cinayətlərin bu qədər yüksək faiz göstəricisi ilə açılması ilk növbədə polis orqanlarının operativ imkanlarının, peşəkar kadr potensialının və institusional koordinasiyanın göstəricisidir. Bu o deməkdir ki, cinayət törədən şəxs məsuliyyətdən boyun qaçırıb cəzasız qalacağına ümid edə bilməz.

*Vətəndaş əmindir ki, onun hüququnu tapdalayan şəxs mütləq cavab verəcək. Keçirilən sorğular belə bir ictimai inamın çoxdan formalaşdığını təsdiqləyir.*

Ölkədə cəzanın labüdlüyü prinsipi tam işləkdir və cinayətə meyilli şəxslərdə cəzasızlıq hissini aradan qaldıra biləcək həddədir. Hansı ki, bu kriminoloji baxımdan ən güclü preventiv amillərdən biri sayılır. Yəni cinayətkar üçün risk yüksəldikcə cinayətə meyl də azalır.

Digər tərəfdən, bu göstəricilər ölkədə ictimai-siyasi sabitliyin və təhlükəsizliyin qorunmasına birbaşa təsir edir. Vətəndaş bilir ki, başına gələn hadisə diqqətsiz qalmayacaq, müraciəti kağız üzərində itib-batmayacaq və onun hüququnu tapdayan, əmlakını talayan şəxs mütləq qanun qarşısında cavab verəcək. İndiyədək keçirilən beynəlxalq sorğularda da vətəndaşların Azərbaycan polisinin fəaliyyətindən razılıq bildirməsi artıq belə bir ictimai inamın tam formalaşdığını təsdiqləyir.

Ağır və xüsusilə ağır, qeyri-aşkar şəraitdə törədilən cinayətlərin hamısının açılması başqa bir dövlətin əməliyyat işi və istintaq aparatı üçün metodiki vəsait olacaq qədər dəyərli təcrübədir. Adi bir oğurluq hadisəsinin üstünün açılması prosesi əksər hallarda cəmiyyət üçün görünməz qalır. Halbuki bir mobil telefonun, bir çantanın və ya bir avtomobilin oğurlanması faktının arxasında ciddi əməliyyat-axtarış tədbirləri, kameraların araşdırılması, telefon siqnallarının təhlili, şahid ifadələri, texniki ekspertizalar və saatlarla davam edən əməliyyat işi dayanır. Vətəndaş yalnız cinayətin açılıb və ya açılmadığını görür, bununla maraqlanır. Bu nəticəyə gedən yolun böyük fiziki, intellektual və texniki resurs tələb etməsindən xəbərsiz olur.

Üstəlik, cinayətlərin yüksək faizlə açılması yalnız keçmişdə törədilmiş cinayətlərin izinə düşmək demək də deyil. Bu, gələcəkdə törədilə biləcək cinayətlərin qarşısını alan mühüm psixoloji və sosial məsələdir. Təhlükəsizlik yalnız küçədə polis görməklə ölçülmür. Təhlükəsizlik vətəndaşın onu anlamasıdır ki, qanun işləyir və işlədiyi də sübut olunur. Sabitliyin etibarlı təminatından biri məhz budur.

# Respublika Xəbərləri

### Azərbaycandan növbəti humanitar yardım

Azərbaycan tərəfindən Ukraynaya humanitar yardım məqsədilə nəzərdə tutulmuş elektrik avadanlıqlarından ibarət növbəti yük Sumqayıt Texnologiyalar Parkının ərazisindən yola salınıb. Yardımın göndərilməsi Prezidentin müvafiq Sərəncamına əsasən, Energetika Nazirliyi tərəfindən təmin edilib.

### Elektron siqaret qadağan edildi

Azərbaycanda elektron siqaretlərin və onların komponentlərinin idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və pərakəndə satışı, istifadəsi qadağan edilib. Prezident İlham Əliyev bununla bağlı "Tütün və tütün məmulatı haqqında" qanuna dəyişikliyi təsdiqləyib.

### Amnistiyanın icrası davam edir

Amnistiya aktı indiyədək 12 min 336 şəxs barəsində tətbiq olunub. Həmin şəxslərdən 1021-i böyük ictimai təhlükə törətməyən, 10 min 502-si az ağır, 813-ü ağır cinayətlər törətmiş şəxslərdir. Ümumilikdə amnistiya tətbiq olunmuş şəxslərdən 11 min 761-i kişi, 575-i isə qadındır.

### Ailələr yeni evlərinə qayıdırlar

Xocalı rayonunun Badara və Seyidbəyli kəndlərinə növbəti köç həyata keçirilib. Hər iki kəndə, ümumilikdə 100 nəfərdən ibarət 25 ailə köçürülüb. Zəngilan rayonunun Məmmədbəyli kəndinə isə 20 ailə olmaqla, 103 nəfər köçürülüb.

### Sürücülər hansı qaydaları pozurlar?

DİN Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin paytaxt yollarında quraşdırılmış videomüşahidə kameralarının əhatə dairəsində ötən il ərzində 2546 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Sürücülər əsasən yüksək sürət, svetoforun qadağanedici işarəsində hərəkət etmə, ara məsafəsini saxlamamaq kimi qaydaları pozublar.

### İşlə təminat prioritetdir

İşğaldan azad edilmiş ərazilərdə 8 mindən çox vətəndaş işlə təmin olunub. 742 nəfərin isə məşğulluq proqramlarına cəlb edilməsi həyata keçirilir. İşğaldan azad olunmuş ərazilərdə vətəndaşların 58 faizi dövlət, 42 faizi isə özəl sektorda çalışır.

### Tibbi sığortadan istifadə artır

Keçən il Azərbaycan əhalisinin 54 faizi icbari tibbi sığorta xidmətlərindən yararlanıb. Verilən məlumata görə, pasiyentlərin sayı 5,4 milyon nəfərə çatıb. İcbari tibbi sığorta çərçivəsində 15,8 milyon müraciət qeydə alınıb.

### Strateji ehtiyatlarımız çoxalıb

Bu il yanvarın 1-nə Azərbaycanın strateji valyuta ehtiyatları 85 milyard 156.4 milyon ABŞ dolları təşkil edib. Azərbaycan Dövlət Neft Fondu isə qızıl aktivlərini 200 tona çatdırıb. Fond ötən ilin son rübündə əlavə 15.2 ton qızıl alıb.

# Sağlam gələcək naminə

## Narkotiklərlə mübarizədə polisin rolu



Bu gün qlobal miqyasda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsində artım dinamikası müşahidə edilir.

Birləşmiş Millətlər Təşkilatının (BMT) Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin 2030-cu ilə qədər narkotik istifadəçilərinin sayının əlavə 11 faiz artmasına dair proqnozları da dünya miqyasında narkotik istifadəsinin ciddi bir problem olaraq qaldığını göstərir. Ona görə də təhdidlərə münasibətdə həm beynəlxalq, həm də yerli səviyyədə əlaqələndirilmiş mübarizə tədbirlərinin görülməsi zərurətə çevrilir.

### Beynəlxalq əməkdaşlıqda yeni mərhələ

Transmilli mütəşəkkil cinayətkar qrupların müxtəlif ölkələri "narkotik yuvası"na çevirmək və bununla da "qara bazar"ların sayını artırmaqla əlavə gəlir qazanmaq cəhdləri "Ağ ölüm" adlandırılan narkotiklərlə mübarizədə birgə səylər göstərilməsini vacib edir.

Onların ən müxtəlif və ən ağlasığmaz yollarla ölkəmizi də narkotik daşınmasında rahat güzargaha çevirmək cəhdlərinə qarşı hüquq-mühafizə, daha dəqiq desək, daxili işlər orqanları prinsipial mübarizəsini 2025-ci ildə də davam etdirib.

Daxili İşlər Nazirliyi tərəfindən beynəlxalq və regional təşkilatlarla, həmsərhəd və digər ölkələrin aidiyyəti qurumları ilə əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi, Mərkəzi Asiya Regional İnformasiya Əlaqələndirmə Mərkəzi, POMPIDOU, GUAM və digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq davam etdirilib, əməkdaşlar müxtəlif təşkilatların, eləcə də ayrı-ayrı dövlətlərin təşəbbüsü ilə videokonfrans və fiziki formatda keçirilən seminar və iclaslarda iştirak edib, qarşılıqlı informasiya və təcrübə mübadiləsi aparılıb.

### Azərbaycan polisi qətiyyətli və israrlıdır

Əhalinin genofonduna böyük zərbə kimi qəbul edilən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı Daxili İşlər Nazirliyinin ayrı-ayrı baş idarə, idarə, şöbə və bölmələrinin əməkdaşları tərəfindən koordinasiyalı şəkildə mübarizə tədbirləri həyata keçirilib, cari ildə əməliyyat-axtarış fəaliyyətinin miqyası və effektivliyi əhəmiyyətli dərəcədə artırılıb.

Daxili işlər orqanları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar 7.564 faktı üzrə 5 ton 675 kiloqram müxtəlif tərkibli narkotik vasitə və 126 kiloqram psixotrop maddə aşkarlanaraq götürülüb.

Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan 198 nəfərdən ibarət 88 cinayətkar qrup zərərsizləşdirilib. Sözügedən cinayətkar qruplar tərəfindən törədilmiş 283 fakt üzrə məsuliyyətə cəlb edilmiş şəxslərdən çəkisi 2 ton 643 kq narkotik vasitə və 76 kq psixotrop maddə götürülüb.

Xüsusilə də son dövrlər narkotacirlər öz çirkin niyyətlərini ənənəvi üsullarla yanaşı müasir vasitələrdən istifadə etməklə də həyata keçirməyə çalışırlar.

Yəni narkotiklərin təmassız, sosial şəbəkələr üzərindən onlayn qaydada satışını təşkil etməyə cəhd göstərirlər.

Bu cəhdlərə qarşı da polis əməkdaşları tərəfindən müasir üsul və metodlardan istifadə edilməklə adekvat mübarizə aparılır, əməliyyat-texniki tədbirlərlə həmin səhifələr aşkarlanaraq bağlanılması təmin olunur.

Eləcə də həmin səhifələr üzərindən satışla məşğul olan və kuryerliyə cəlb edilən şəxslər ifşa olunaraq barələrində məsuliyyət tədbirləri görülür.

Bunun nəticəsidir ki, 2025-ci ildə narkotiklərin xarici ölkələrdən idxalı olunan sosial şəbəkə profilləri vasitəsilə, eləcə də mobil tətbiqlər üzərindən onlayn satışı hallarının qarşısının alınması istiqamətində 586 fakt üzrə 2 ton 824 kq narkotik vasitə və psixotrop maddə qanunsuz dövriyyədən çıxarılıb.

Şübhəsiz ki, insanların sağlamlığına zərər vuran külli miqdarda narkotik vasitənin polisin qətiyyətli və israrlı yanaşması sayəsində aşkar edilərək qanunsuz dövriyyədən çıxarılması bir daha cinayət əməlinə görə cəza mexanizminin işlək olduğunu, qanunların aliliyinin qorunduğunu göstərir.

### Polis-vətəndaş birliyi mübarizənin effektivliyini artırır

Bu gün mübarizə tədbirləri yalnız narkotik vasitələrin qanunsuz realizəsində iştirak edənlərin ədalət mühakiməsinə cəlb olunması ilə yekunlaşmır.

Daxili İşlər Nazirliyi ölkədə narkotiklərə olan tələbatı azaltmaq, antinarkotik təbliğatını daha da dərinləşdirmək, cəmiyyətimizdə, xüsusilə də gənclərdə immunitet formalaşdırmaq kimi həyativacib hədəfləri əməliyyat-axtarış fəaliyyəti ilə paralel şəkildə həyata keçirir.

Bu baxımdan aidiyyəti dövlət orqanları və ictimai təşkilatlarla əlaqəli şəkildə əhali arasında aparılan maarifləndirmə işləri daha aktiv fazada icra olunur. Ərazi polis orqanları təhsil müəssisələrində maarifləndirici görüşlər keçirməklə narkotik vasitələrin insan orqanizminə zərərləri barədə ətraflı məlumatlar verir, yeniyetmələr və gəncləri narkotikdən istifadənin həm sağlamlıq, həm də ağır hüquqi nəticələri barədə xəbərdar edirlər.

Ötən il respublika üzrə əksəriyyətində rayon polis rəislərinin də iştirak etdiyi iki minə yaxın belə maarifləndirmə tədbiri təşkil olunaraq keçirilib.

### Sosial şəbəkələrdə "maarifləndirmə cəbhəsi"

Daxili İşlər Nazirliyinin, həm də Baş Narkotiklərlə Mübarizə İdarəsinin sosial şəbəkələrdəki rəsmi səhifələrində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı cəmiyyətlə birgə mübarizənin zəruri olduğunu əks etdirən, narkotiklərin insan sağlamlığına, mənəvi və fiziki inkişafına vurduğu zərərlər, törətdiyi təhlükələr barədə gündəlik məlumatlar paylaşılıb. Hazırlanmış sosial reklamların paytaxt və bölgələrdə kütləvi nümayiş etdirilməsi mümkün olan yerlərdə yayımlanması təmin edilib.

26 iyun -"Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü" ilə əlaqədar ictimai maarifləndirmə istiqamətində görülən işlərin effektivliyini artırmaq üçün "Özünü qoru, narkotikə hədəf olma" adlı yeni şüarın elektron informasiya terminallarında nümayişi həyata keçirilib. Bütün bunlar hazırda da polisin mübarizəsinin "maarifləndirmə cəbhəsini" təşkil edir.

Göründüyü kimi, bütün cəbhələrdə bəşəri təhdidin qarşısına sədd çəkmək üçün fasiləsiz xidmət aparılır. Lakin "Ağ ölüm"ə qalib gəlmək üçün vətəndaşların da polisə dəstək olması, bu zəruri prosesdə daha yaxından iştirakı, hər bir kəsin birbaşa antinarkotik təbliğatçısına çevrilməsi bütün dövrlər üçün aktualdır və 21-ci əsrin ən ağrılı problemlərindən olan narkomaniyaya qalib gəlməyin əsas düsturu sayıla bilər.

*C.Qənbərov*

# Onlar yalnız kursant deyil…

## Valideynlər dövlətin sabahına, sabitliyinə sarılırlar





Bəzən düşüncələrini dilə gətirməkdə çətinlik çəkirsən, ancaq bir foto bəs edir ki, fikirlərin onda tam əks olunsun, ifadə edilsin. Polis Akademiyasında valideynlər üçün keçirilən açıq qapı günlərində çəkilən şəkillər də elədir. O fotolarda nə sadəcə valideynlər var, nə də yalnız kursantlar. Orada bir xalqın güvən hissi, bir dövlətin sabaha inamı, bir ailənin illərlə içində böyütdüyü arzular boylanır...

Övladlarının təhsil şəraitlərindən tutmuş, yeyib-içmələrinə qədər təhsil ocağının yaratdığı imkanlarla tanış olan anaların, ataların, bacı və qardaşların fotolarında o qədər duyğu yükü, o qədər məna var ki. Adam baxanda gah kövrəlir, gah sevinir, gah da qürurlanır.

Polis Akademiyası ali təhsil ocağı olaraq hüququn məktəbidir, məbədidir. Ancaq bu fotolar göstərir ki, burada yalnız peşə öyrədilmir, həm də xalqa, dövlətə həsr ediləcək mübarizə dolu ömür yolu çəkilir, anaların duaları polis forması geyinir, ataların susqun qürurunu övladlarının mətin addım səsləri əvəzləyir.

Dünən məktəbə yola salanda ağır olmasın deyə övladının çantasını daşıyan bu ataların övladları indi auditoriyada əyləşən kursantlardır və dövlətin ən ağır məsuliyyətini öz çiyinlərinə götürməyə hazırlaşırlar. Oğlunun formasına baxdıqca öz gəncliyini xatırlayan ata, bəlkə də, yarımçıq qalan arzularının gözlərinin önündə necə canlandığını görür həmin an. Dağ kimi arxasında dayandığı oğlu sabah bütöv bir xalqa arxa duracaq, təhlükəyə qarşı sərt qayaya çevriləcək, polad sipər olacaq. Bir ata üçün bundan böyük qürur varmı, ola bilərmi?!

Oğlunun boynuna sarılan ana yaddaşının dərinliyində ondan hələ də körpə balasının qoxusunu almağa çalışsa da, “oxuyub vətəninə, elinə-obasına layiqli övlad olsun, İlahi” duasına bələnmiş uniformalı övladının əzəmətinə heyranlıqla baxması gerçəkləşən arzunun rəsmidir sanki. Həmin anın şəkillərinə baxanda anlayırsan ki, forma geyinən təkcə övlad deyil, valideynlərin arzularıdır həm də.

Doğrudur, analar heç vaxt dəyişmir, gənc kursant oğlu sabah böyük vəzifə sahibi də olsa, saçına sığal çəkəcəyi, tez-tez üşüyüb-üşümədiyini soruşacağı, fürsət tapanda əlindəki şarfı boynuna dolamağa, papağı başına keçirməyə çalışacağı övladı olaraq qalacaq həmişə. Ancaq sabah övladının isti-soyuq demədən, gecə-gündüzə baxmadan vətəndaşın can və əmlak təhlükəsizliyi üçün xidmət edəcəyini, hətta yeri gələndə özünü təhlükənin "önünə" atacağını da yaxşı bilir polis anası.

Bəli, polis peşəsi onun çətinliyini bilərək yola çıxanların məsələsidir və bu şərəfli xidmət bir nəfərin yox, bütün ailənin fədakarlığı olur adətən. Əslində, dövlətin gücü elə ailələrin fədakarlığından başlayır. Güclü polis, güclü ordu, güclü dövlət ailələrin verdiyi razılıqdan doğulur. Polis Akademiyası da bu mənada ailədən dövlətə keçid məktəbidir. Bu təhsil ocağında gənc kursantlar ailə himayəsindən çıxıb dövlətin məsuliyyətinə daxil olublar, dövlət də onları öz övladı kimi qoruyur, təhsil verir, gələcəyini qurur. Bu mənada övladının boynuna sarılan valideyn onun timsalında həm də sabah təhlükəsizliyinə arxalanacağı dövlətinə sarılır.

*R.Mehtiyev*

# Qətiyyətli tədbirlər görülür

## Yol hərəkəti təhlükəsizliyi hər kəsin məsuliyyətidir

Son günlər respublikanın müxtəlif ərazilərində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məqsədilə keçirilən tədbirlər zamanı qaydaları kobud şəkildə pozan sürücülərlə bağlı ciddi qanunauyğun tədbirlər görülüb.

### Piyadalara yol verilməlidir

Qanunvericiliyin tələblərinə əsasən yol ayrıcında sağa və ya sola dönən hər bir sürücü hərəkət hissəsini keçən piyadalara, eləcə də velosiped yolu ilə hərəkət edən velosipedçilərə yol verməlidir. Profilaktik tədbir zamanı bu tələbi pozan sürücü yol polisi tərəfindən saxlanılıb, onunla maarifləndirici söhbət aparılaraq qaydalar izah edilib. Bir anlıq diqqətsizliyin ağır nəticələrə səbəb ola biləcəyi bir daha sürücünün diqqətinə çatdırılıb.

Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları tərəfindən Bakı–Qazax avtomobil yolunun 290-cı kilometrliyində dövlət qeydiyyat nişanı olmayan “Shacman” markalı yük avtomobilinin sürücüsü saxlanılıb. Məlum olub ki, sürücü məsuliyyətdən yayınmaq üçün təhlükəli manevrlər edərək digər yol hərəkəti iştirakçıları üçün real təhlükə yaradıb. Araşdırma zamanı onun narkotik vasitənin təsiri altında, sürücülük hüququ olmadan, kütlə parametrlərini aşmaqla təkrar qayda pozuntusu törətdiyi müəyyən edilib. Toplanmış materiallar məhkəməyə göndərilib və məhkəmənin qərarı ilə sürücü inzibati qaydada həbs edilib.

### Xankəndidə avtoxuliqanlıq edilib

Xankəndi şəhərində isə ictimai asayişi nümayişkaranə şəkildə pozan sürücü polis əməkdaşları tərəfindən saxlanılıb. Şəhər ərazisində “Chevrolet Camaro” markalı avtomobili ilə qarlı hava şəraitində təhlükəli manevrlər edərək avtoxuliqanlıq edən 40 yaşlı Elnur Süleymanov barəsində protokol tərtib olunub və materiallar məhkəməyə göndərilib. Məhkəmənin qərarı ilə o, 1 il müddətinə sürücülük hüququndan məhrum edilməklə 15 sutka inzibati həbs cəzası alıb.

Qanunu kobud şəkildə pozan və polis əməkdaşlarının qanuni tələblərinə tabe olmayan sürücülərə qarşı qanunvericiliyin tələblərinə uyğun olaraq qətiyyətli tədbirlər davam etdirilir.

# Könüllü qurbanlar...

## Zərərçəkəni cinayətkarla “şərik” edən amillər necə yaranır?

**Cinayət hüququnun və sağlam məntiqin dəyişməz birinci tezisi var. Bu tezisə görə cinayətin məsuliyyəti həmişə cinayətkardadır. Heç bir davranış, heç bir ehtiyatsızlıq, heç bir səhv seçim cinayətə haqq qazandırmır. Zərərçəkən təqsirli deyil və ola da bilməz. Bu prinsip daha çox aksiomdur və nə hüquqi, nə də mənəvi baxımdan müzakirə edilmir.**

Amma ikinci bir həqiqət də var ki, onu görməzdən gəlmək cəmiyyətə də, fərdlərə də xeyir gətirmir. Cinayətə zəmin yaradan, diqqətsiz davranışı nəticəsində zərərçəkənə çevrilən şəxs hadisədə istər-istəməz iştirakçı mövqeyində olur. Bu hüquqi yox, viktimoloji baxışdır. Burada məqsədimiz kimisə ittiham etmək də deyil, hadisəni doğuran şərtləri anlamaq və gələcək riskləri azaltmağa çalışmaqdır.

Ötən həftə Nəsimi rayonunda baş vermiş hadisə buna aydın nümunədir. Zərərçəkən mobil telefonunun naməlum şəraitdə oğurlandığını bildirərək polisə müraciət edib. Araşdırma zamanı məlum olub ki, oğru əsasən restoranlarda, klinikalarda və parklarda nəzarətsiz qoyulan mobil telefonları talayıb. Burada cinayəti törədən şəxs tam məsuliyyət daşıyır, şübhəsiz ki. Amma onu da nəzərə almaq lazımdır ki, dəyərli əşyanı nəzarətsiz qoyanda kriminal davranışa meyilli olanı da, hətta, bəlkə, olmayanı da şirnikləndirə bilər. Nəticədə yaranan mühit cinayət üçün əlverişli zəminə çevrilir. Zaman nə qədər dəyişir-dəyişsin, ancaq bineyi-qədimdən can və əmlak təhlükəsizliyini düşünməyin, bunun üçün qabaqlayıcı tədbirlər görməyin ilk növbədə hər kəsin öz məsuliyyəti olduğu gerçəkliyi dəyişmir. Polisin qalxanı şəxsi təhlükəsizlik səddini tamamlayan faktordur. Bunu unudanların təcrübəsindən çox tez-tez görürük ki, kimi avtomobilinin salonunda qiymətli əşyanı açıq görünən yerə qoyub gedir, kimi telefonunu masa üstündə buraxır, kimi də şəxsi və ya bank kart məlumatlarını düşünmədən paylaşır. Əlbəttə,bu davranışlar birbaşa cinayət yaratmır, amma cinayət üçün fürsət yaradır. Kriminalistikanın viktimoloji davranış amili adlandırdığı bu hallar ən çox dələduzluq cinayətlərində özünü göstərir.

Dələduzluğun bu gün ağlagəlməz formaları mövcuddur. Telefon zəngləri, saxta mesajlar, saxta investisiya təklifləri, hətta süni intellektdən istifadə edilən onlayn tələlərə qədər çeşidli risklər var. Amma bütün bu cinayətləri yalnız bir amil birləşdirir: cinayətkarın üzünə qapını zərərçəkən özü açır. Məlumatı özü verir, linkə özü daxil olur, pulu özü köçürür. Bundan sonra isə iş işdən keçmiş olur.

Bir daha qeyd edək ki, bu faktları dilə gətirmək qurbanları günahlandırmaq deyil. Əksinə, qurbanların sayını azaltmaq üçün gerçəklə üzləşməkdir. Cinayətkarı cəzalandırmaq vacibdir, amma cinayətin qarşısını almaq daha vacibdir. Bu isə yalnız polis fəaliyyəti ilə yox, fərdi davranış mədəniyyəti ilə də bağlıdır.

Bəlkə də, ən doğru yanaşma da elə budur. Hər kəs bir az özünün polisi olmalıdır. Qanunlarla üzləşəndə də təhlükəsizliyini qoruyarkən də məsuliyyəti əvvəlcə özündə axtarmalıdır. Diqqət, ehtiyat və məlumatlılıq cinayətə qarşı ən effektiv qalxandır. Bəli, cinayətkar günahkardır, amma birinin ehtiyatsız davranışları da cinayətkarın sığınacağıdır.

*R.Mehtiyev*

# Kiber risklər təhlil olunur

## Qabaqlayıcı tədbirlər müsbət nəticələr verməkdədir

Bank kartlarına qanunsuz müdaxilə və onlayn oğurluq, dələduzluq hallarının qarşısının alınması istiqamətində həyata keçirilən kompleks tədbirlər müsbət nəticələr verməkdədir.

Daxili İşlər Nazirliyi ilə Mərkəzi Bank arasında qurulmuş qarşılıqlı faydalı əməkdaşlıq çərçivəsində kiber risklər sistemli şəkildə təhlil olunur, bank müştərilərinin məlumatlandırılması təmin edilir.

Ötən il görülən tədbirlər nəticəsində onlayn məkanda talama məqsədilə istifadə edilən şübhəli internet resurslarından 372 sayda saxta sayt, link və keçidlər müəyyən edilərək bloklanıb. Bu, bank kartlarına qanunsuz müdaxilə hallarının azalmasına mühüm təsir göstərib.

Aparılan təhlillər göstərir ki, bank kartı istifadəçiləri şübhəli əməliyyatlarla rastlaşdıqda vaxt itirmədən müştərisi olduqları bankı məlumatlandırdıqları hallarda qabaqlayıcı tədbirlər effektiv olur və kartdakı vəsaitin oğurlanmasının qarşısı alınır. Bu zaman bank kartına müdaxilənin istiqaməti operativ şəkildə müəyyən edilir və risklər neytrallaşdırılır.

# Dağlara qar yağsa da...

## Polis əməkdaşları yenə güvən yeridir




Son dövrlər dağlıq bölgələrdə müşahidə olunan qarlı hava şəraiti ilə əlaqədar olaraq yaşayış məntəqələrini birləşdirən yollarda, eləcə də avtomobil yollarında polis əməkdaşlarının fasiləsiz xidməti təşkil olunub. Nəqliyyatın hərəkətinin fasiləsizliyini təmin etmək üçün xidmətə əlavə polis naryadları cəlb edilib. Digər dövlət orqanları ilə birgə yollar qardan təmizlənir, gecə saatlarında baş verməsi ehtimal olunan buzlaşmaya qarşı qabaqlayıcı tədbirlər görülür.

Hazırda xidmət fasiləsiz davam etdirilir.

# “Etibarlı” iş yoldaşı

## Mobil tətbiqdən öz hesabına pul köçürüb

Qaradağ rayonu ərazisində bir nəfərin bank kartından 1200 manat pul oğurlanıb. Bu barədə zərərçəkən polisə müraciət edib.

Qaradağ Rayon Polis İdarəsi 38-ci Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 28 yaşlı N.Ataşov müəyyən olunaraq saxlanılıb. Araşdırma zamanı saxlanılan şəxsin zərərçəkənin iş yoldaşı olduğu və onun telefonundan mobil tətbiq vasitəsilə ödənişi öz hesabına köçürdüyü müəyyən edilib.

Araşdırma davam etdirilir.

# Əlbir olan oğrular...

## Şübhəlilər məsuliyyətə cəlb edilib

Abşeron rayonunda silsilə oğurluq hadisələri baş verib. Naməlum şəxslər Xırdalan şəhərində bir, Masazır qəsəbəsində isə iki mağazanın qapısını sındıraraq içəri daxil olub və obyektlərdən ümumilikdə 2300 manat pulu talayıblar.

Polis əməkdaşları tərəfindən keçirilən tədbirlər nəticəsində qabaqcadan əlbir olaraq oğurluqları törətməkdə şübhəli bilinən, əvvəllər dəfələrlə məhkum olunmuş A.Qurbanov, Ü.Şərifov və S.Kərimov müəyyən edilərək saxlanılıblar. Araşdırmalarla onların Gəncə şəhəri ərazisində yerləşən ayrı-ayrı iki marketdən də nəğd pul, tütün məmulatı və digər məhsulları taladıqları məlum olub.

Faktlar üzrə araşdırmalar davam etdirilir.

# Su sənəyi suda sınar

## Keçmiş məhkumlar yenə tutuldu

Paytaxtın Nəsimi rayonunda oğurluq hadisəsi baş verib. Naməlum şəxs zərərçəkənin “Lexus” markalı avtomobilinin şüşəsini sındıraraq içərisindən 2100 manat, bank kartları və sənədlərini talayıb.

Polis əməkdaşları tərəfindən keçirilən tədbirlə əməli törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 40 yaşlı S.Mirzəyev müəyyən olunaraq saxlanılıb. Araşdırmalarla onun elə həmin gün eyni üsulla “Changan” markalı digər avtomobildən də bank kartları oğurladığı, daha sonra isə kart hesabında olan pul vəsaitini nağdlaşdırdığı məlum olub. Faktlar üzrə araşdırmalar davam etdirilir.

# Etik davranış vacib şərtdir

## Qanunların tətbiqi onunla daha təsirli olur

**Polis əməkdaşı ilk növbədə qanun keşikçisidir. İctimai təhlükəsizliyi qoruyarkən, cinayətkarlıqla mübarizədə qanunların aliliyini əsas tutur və hamıdan da bunu tələb edir. Ona görə onun davranışı, münasibəti və qərarları cəmiyyətin bütövlükdə dövlətə, dövlətin hüquqi düzəninə inam formalaşdırır. Bu baxımdan insanlarla etik davranmaq polis peşəsinin ayrılmaz və fundamental hissəsidir. Etiket qaydalarına əməl etmədən qanunun tətbiqi mexaniki və ruhsuz olar. Məhz etika ilə qanunun aliliyi daha humanist və təsirli şəkildə təmin olunur.**

### Polis etikası qanunun icrasına necə təsir edir?

Polis etikası polis əməkdaşının xidməti fəaliyyəti zamanı riayət etməli olduğu mənəvi, hüquqi və davranış normalarının məcmusudur. Bu normalar əməkdaşın vətəndaşlarla, həmkarları ilə, rəhbərliklə, eləcə də cəmiyyətlə münasibətlərini tənzimləyir.

Etik davranış yalnız qanun pozuntusundan çəkinmək deyil, həm də yüksək mənəvi dəyərlərə sadiq qalmaq deməkdir.

Aydın məsələdir ki, polis əməkdaşı üçün əsas meyar qanunun aliliyidir. Ona görə vəzifə borcunun icrası zamanı şəxsi münasibətlər, emosiyalar, sosial status, maddi maraqlar qərarlara təsir etməməlidir. Ayrı-seçkilik etmək etik davranışa ziddir və bu, cəmiyyətin polisə olan etimadını sarsıdır. Deməli, etik davranış kodeksinə əməl edən polis əməkdaşı hər bir vətəndaşa eyni məsuliyyət və obyektivliklə yanaşır, vətəndaşlarla münasibətdə mədəni davranış sərgiləyir.

### Dinlə, idarə et!

Polis-vətəndaş münasibətləri cəmiyyətin hüquqi mədəniyyətinin göstəricisidir. Etik davranan polis əməkdaşı nəzakətli danışıq tərzi seçir, vətəndaşı diqqətlə dinləyir və kobud davranışdan çəkinir, gərgin vəziyyətlərdə səbir nümayiş etdirir. Nəzərə almaq lazımdır ki, dinləməyi bacaran insan qarşısındakını idarə etməyi də bacarar.

Polis əməkdaşları tez-tez aqressiv, həyəcanlı və emosional şəxslərlə ünsiyyət qurmalı olurlar. Belə hallarda peşəkar ünsiyyət bacarığı həlledici rol oynayır. Aqressiyaya aqressiya ilə cavab vermək qarşıdurmanı dərinləşdirir.

Təmkinli və ölçülü danışıq isə vəziyyəti nəzarət altına almağa kömək edir. Polis əməkdaşı bu cür hallarda həm hüquqi səlahiyyətlərini, həm də psixoloji yanaşmanı balanslı şəkildə tətbiq etməlidir.

Əsas vəzifəsi qanunun aliliyini təmin etmək olan polis bu zaman insani münasibətə də yer ayırmalıdır. Qanunla insani münasibət bir-birinə zidd anlayışlar deyil, əksinə, bir-birini tamamlayan dəyərlərdir.

Empatiya göstərmək, vətəndaşın vəziyyətini anlamağa çalışmaq polis əməkdaşının peşəkarlığını daha da artırır.

Bu yanaşma qanuni qərarların cəmiyyət tərəfindən daha rahat qəbul edilməsinə şərait yaradır.

### Etik davranış cəmiyyətə də təsirsiz ötüşmür

Etika həm də xidmət yoldaşları ilə münasibətlərdə özünü göstərir. Sağlam iş mühiti üçün qarşılıqlı hörmət, normal ünsiyyət, intizam,



peşəkar həmrəylik vacib şərtlərdir.

Belə olan halda kollektiv daha güclü, daha səmərəli və daha məsuliyyətli olur. Polis əməkdaşının cəmiyyətdə təmsil etdiyi orqana da inam yaratması, vətəndaşları polislə əməkdaşlığa təşviq etməsi, cinayətkarlığa qarşı mübarizənin daha effektiv aparılması polis əməkdaşının vətəndaşlarla nə qədər etik normalar daxilində davranmasından da asılıdır.

Ona görə etika bəzən güc tətbiq etməkdən daha təsirli olur. Polis əməkdaşının etik davranışı onun peşəkar simasının əsas göstəricisidir.

*A.Tahirova*

# Həqiqət detallarda gizlənir

## Kriminalistikada hər zərrə sübutdur

Cinayətlərin açılmasında ən vacib məqamlar bəzən göz önündə olan deyil, diqqətdən kənarda qalan detallardır. Kriminalistik təcrübə göstərir ki, bir baxışda əhəmiyyətsiz görünən iz, jest və ya davranış forması hadisənin mahiyyətini tamamilə dəyişə bilər.

Peşəkar polis əməkdaşı üçün əsas bacarıqlardan biri məhz detalları görmək, onları düzgün qiymətləndirmək və faktlarla əlaqələndirməkdir. Bu yanaşma cinayətin səbəblərini, gedişatını və iştirakçılarını üzə çıxarmaqda mühüm rol oynayır.

### Hadisə yerinin “danışan” izləri

Hadisə yeri kriminalist üçün səssiz olsa da, məlumatların, dəlillərin ilkin toplandığı mənbədir. Dağılmış əşyaların vəziyyəti, ayaq izlərinin istiqaməti, işıqlandırma və ətraf mühitin durumu hadisənin necə baş verdiyi barədə ilkin təsəvvür yaradır.



Bəzən bir stulun yerinin dəyişməsi və ya pəncərənin açıq qalması hadisənin təsadüfi deyil, planlı olduğunu göstərə bilər. Bu cür detallar hadisənin xronologiyasını qurmağa kömək edir və istintaqın düzgün istiqamətdə aparılmasını təmin edir.

### İnsan davranışında gizlənən siqnallar

Kriminalistikada təkcə maddi izlər deyil, insan davranışı da mühüm informasiya daşıyıcısıdır. Şübhəli şəxsin danışıq tərzi, səs tonu, göz kontaktı və bədən dili onun psixoloji vəziyyəti barədə ipucları verir. Davranışdakı uyğunsuzluqlar, həddindən artıq həyəcan və ya süni sakitlik bəzən gizlədilən həqiqətlərin göstəricisi olur. Təcrübəli polis əməkdaşı bu cür siqnalları müşahidə edərək sözlərlə deyil, davranışlarda gizlənən məlumatları düzgün oxuya bilir.

### Zaman, məkan və xırda uyğunsuzluqlar

Cinayətlərin açılmasında zaman və məkan anlayışları da detallarla müəyyənləşir. Verilən ifadələrdəki vaxt uyğunsuzluğu, məsafələrin real imkanlara uyğun gəlməməsi və hadisələrin ardıcıllığındakı boşluqlar istintaq üçün mühüm siqnaldır. Bir neçə dəqiqəlik fərq və ya kiçik coğrafi uyğunsuzluq bütün ifadənin doğruluğunu şübhə altına ala bilər. Bu səbəbdən detalların dəqiqliklə yoxlanılması istintaq prosesinin əsas mərhələlərindən sayılır.

### Peşəkar baxış və təcrübənin əhəmiyyəti

Detalları görmək təkcə diqqət deyil, eyni zamanda təcrübə tələb edir. Peşəkar polis əməkdaşı illərlə qazandığı bilik və müşahidə qabiliyyəti sayəsində adi və qeyri-adi məqamları ayırd edə bilir. Kriminalistik düşüncə formalaşdıqca hər detal bir sual, hər uyğunsuzluq isə yeni araşdırma istiqaməti yaradır. Nəticə etibarilə, detallara əsaslanan yanaşma həqiqətin üzə çıxarılmasında ən etibarlı yollardan biri hesab olunur.

*A.Tahirova*

# Güclü polis, təhlükəsiz cəmiyyət

## Fiziki aktivlik həyat tərzi olmalıdır

Polis əməkdaşının fiziki hazırlıq səviyyəsinin yüksək olması mühüm xidməti zərurətdir və bir çox hallarda həyati əhəmiyyət daşıyır. Çünki bundan həm də vətəndaşların can və əmlak təhlükəsizliyi asılıdır. Bu səbəbdən polisin sağlam çəkidə olması artıq yalnız şəxsi sağlamlıq məsələsi olmaqdan çıxır və ictimai təhlükəsizliyin təmin olunması prosesinin bir parçasına çevrilir.

Artıq çəki çevikliyi azaldır, tez yorulmaya səbəb olur və xidmət zamanı riskləri artırır. Məhz buna görə polis əməkdaşları üçün mütəmadi olaraq fiziki hazırlıq məşğələləri keçirilir, idman yarışları təşkil olunur. Lakin bu prosesin səmərəli olması üçün fiziki aktivlik polis əməkdaşının gündəlik həyat tərzinin ayrılmaz hissəsi olmalıdır.

Bu baxımdan dietoloqların tövsiyələri də nəzərə alınaraq qidalanmadan gündəlik davranışlara qədər sağlam vərdişlərin formalaşdırılması vacibdir.

Polis əməkdaşlarına gündəlik rasionda balanslı qidalanma, tərəvəz, zülal və liflə zəngin qidalara üstünlük verilməsi tövsiyə olunur. Şirin və qazlı içkilər, “fast-food” məhsulları, eləcə də gec saatlarda ağır yeməklər artıq çəkiyə səbəb olan əsas amillərdir. Gün ərzində kifayət qədər su içmək və porsiya ölçülərinə nəzarət etmək çəki artımının qarşısını almağa kömək edir.

Gündəlik həyatda daha çox hərəkətdə olmaq, piyada gəzintilərə və pilləkənlərdən istifadəyə üstünlük vermək, planlı idman məşqləri ilə məşğul olmaq əzələ gücünü artırır və ürək-damar sistemini möhkəmləndirir. Polis əməkdaşlarının yuxu və istirahət rejimi adi insanlardan fərqli olduğundan, bu vəziyyət maarifləndirici yanaşma və şəxsi məsuliyyət hesabına kompensasiya edilməlidir.

Nəticə etibarilə, bədən forması qoruyan polis əməkdaşı xidmət fəaliyyətini daha təhlükəsiz və daha yüksək səviyyədə yerinə yetirə bilər.

# Qanunvericilik prosesi

## Ölkəmizdə qanunlar necə qəbul edilir?

Qanunvericilik cəmiyyətdə ictimai, iqtisadi və mülki münasibətləri tənzimləyən, dövlət tərəfindən qəbul edilən məcburi hüquqi normaların formalaşması prosesidir.

Qədim dövrlərdə sosial qaydalar adət-ənənələr (adət hüququ) vasitəsilə tənzimlənirdi. Dövlətlərin yaranması ilə bu qaydalar yazılı formaya salınaraq (məsələn, Hammurapi qanunları) qanunvericiliyin əsasını qoydu. Yəni qaydalar tarixən yazılı hüquqa çevrilib.

Azərbaycanda qanunların qəbul edilməsi prosesi qanunvericilik təşəbbüsü ilə başlayır. Qanun layihələri Prezident, deputatlar, Ali Məhkəmə, Respublika Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və ya 40 min seçici tərəfindən təqdim edilə bilər. Layihələr parlament səsverməyə çıxarılaraq qəbul edilir.

Qanunlar qəbul edildiyi gündən 14 gün müddətində Prezidentə imzalanmaq üçün təqdim edilir. Təcili elan olunan qanun layihəsi Prezidentə imzalanmaq üçün qəbul edildiyi gündən 24 saat ərzində verilir. Dövlət başçısı tərəfindən imzalanıb rəsmi dərc edildikdən sonra isə qüvvəyə minir.

# Xidmətdən meydana...

## Polislər ölkə çempionatında mübarizəni davam etdirirlər



2025/2026 mövsümü üzrə minifutbol üzrə Azərbaycan çempionatında DİN İdman Cəmiyyəti mübariz və dinamik çıxışı ilə diqqət çəkir. Polis əməkdaşlarından ibarət komanda peşəkar minifutbolçulardan formalaşmış komandalarla bərabər səviyyədə mübarizə aparır.

Geridə qalan 11 turdan sonra komanda turnir cədvəlində orta pillələrdə qərarlaşıb və çempionatın gedişində stabil oyun nümayiş etdirir. Komanda bu müddət ərzində bir sıra gərgin qarşılaşmalarda meydana çıxıb. Xüsusilə son turlarda nümayiş etdirilən oyun tempi və meydandakı intizamlı çıxış polislərin çempionatın ikinci yarısında daha yaxşı nəticələrə iddialı olduğunu göstərir.

Hazırda 11 oyundan 17 xal toplayan minifutbolçularımız turnir cədvəlində 7-ci pillədə yer alıb. Qarşıdakı turlarda komandanı daha vacib oyunlar gözləyir. Məşqçi heyəti və futbolçular qarşıdakı görüşlərdə maksimum nəticə qazanaraq mövsümü ilk üçlükdə başa vurmağı hədəfləyirlər.

DİN İdman Cəmiyyətinin ölkə çempionatındakı iştirakı həm idmançılar, həm də azarkeşlər üçün maraq doğurur. Komandanın mövsümün qalan hissəsində göstərəcəyi nəticələr isə xüsusi maraqla gözlənilir.

# Süni intellekt polisə kömək edəcək

## Təhlükəsizliyin təminində yeni dövr başlayır

Böyük Britaniya hökuməti əhalidən polisə edilən təcili olmayan zəngləri idarə etmək üçün süni intellekt ilə işləyən çatbotlardan istifadə etməyi planlaşdırır.

Virtual köməkçinin zəngin birbaşa operatora, polis məmuruna və ya başqa bir təcili yardım xidmətinə ötürülməsinə qərar verə bilməsi gözlənilir.

Məlumata görə, polis məmurlarını sənədləşmə işlərindən azad etmək məqsədilə bütün polis şöbələrində süni intellekt tətbiq etmək üçün yeni milli süni intellekt mərkəzi olan "Police.AI"yaradılacaq.

Süni intellekt həmçinin CCTV kameralarından, ağıllı video qapı zənglərindən və mobil telefonlardan götürülən görüntüləri, eləcə də avtomatik üz tanıma sistemlərindən alınan məlumatları təhlil etmək üçün istifadə olunacaq. Onların əhatə dairəsinin beş dəfə genişləndirilməsi və bütün İngiltərə və Uelsi əhatə etməsi planlaşdırılır.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: ANAR QAFAROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik